https://doi.org/10.36719/2789-6919/38/61-64

**Orxan Mehmanoğlu**
Bakı Biznes Universiteti
magistrant
o.eliyev11124@gmail.com

# Sərhədşünaslıq elmi və onun konseptual stadiyası

**Xülasə**

Məqalədə suveren dövlətin təmərküzləşməsi, demokratik vətəndaş cəmiyyətinin formalaşması kriteriyaları üzərində Silahlı Qüvvələr metamodelinin zəruriliyi analiz edilmişdir. Ordu quruculuğu fonunda sərhədin təhlükəsizliyi, o cümlədən müqəddəs bir anlama sahib olması referanslarla isbat edilmiş, elmi-fəlsəfi, həmçinin, teoloji yanaşma baxımından təhlil edilmişdir. Məqalədə, həmçinin, sərhəd modelinin abstrakt yanaşma baxımından sahib olduğu dəyərlər, demokratik dövlət və cəmiyyət prizmasında mühümlüyü çoxmərkəzli məfhum fonunda incələnmişdir.

***Açar sözlər:*** *Silahlı Qüvvələr, ordu quruculuğu, sərhədşünaslıq, teoloji, milli xarakter*

**Orkhan Mehmanoglu**
Baku Business University
Master student
o.eliyev11124@gmail.com

# The Science of Border Studies and its Conceptual Stage

**Abstract**

In the article, the necessity of the Armed Forces metamodel was analyzed on the criteria of the centralization of the sovereign state and the formation of a democratic civil society. The security of the border against the background of army building, including having a sacred meaning, has been proven with references and analyzed from a scientific-philosophical as well as a theological point of view. İn the article, the values of the border model in terms of an abstract approach, the importance of the democratic state and society in the prism of the multi-centered concept are elaborated.

***Keywords:*** *Armed Forces, army building, border studies, theological, national character*

## Giriş

Dövlətçilik modelinin inkişaf formasiyasında təhlükəsizlik, müstəqillik platformalarının təməl prinsipləri bütün dövrlərdə vacib faktorlardan biri olaraq dəyərləndirilmişdir. Bu anlam vətəndaş rifahının, cəmiyyətin, bütövlükdə ölkənin silahlı hücum, potensial təhdidlərdən qorunması, ərazi bütövlüyü, hətta suveren statusu da daxil olmaqla Silahlı Qüvvələr, o cümlədən ordu quruculuğunun təmərküzləşməsinin zəruriliyini formalaşdırmışdır. Bəşər tarixinin ən böyük filosof və mütəfəkkirləri, siyasi xadimləri belə ordu quruculuğu prinsiplərində yekdil qənaətləri olmuş, Silahlı Qüvvələr metamodelini dövlətin ən mühüm atributlarından biri olaraq dəyərləndirmişlər. Belə ki, dahi italyan filosofu və mütəfəkkiri Makiavelli söyləmişdir: “Öz qoşunu olmayan dövlət möhkəm dövlət deyil, o, tamamilə taleyin şıltaqlığından asılıdır, zira şücaət çətin vaxtlarda onun üçün etibarlı müdafiə deyil” (Makiavelli, 2008: 83).

Dövlətçilik konyukturasında ordu modelinin mükəmməl definisiyasını isə Türkiyə dövlətinin qurucusu, dünya tarixinin ən tanınmış simalarından biri olan Atatürk söyləmişdir: “Dünyada həyat üçün, insan kimi yaşamaq üçün müstəqillik lazımdır. Müstəqillik sahibi olmaq üçün güc sahibi olmaq və bunun üçün mövcudiyyətini isbat etmək zəruridir. Güc ordudur. Ordunun həyat və səadət qaynağı müstəqilliyi təqdir edən millətin və gücün lazımlılığına olan imanıdır” (Nəzəroğlu, 2022: 309).

Creative Commons Attribution-NonCommercial 4.0 International License (CC BY-NC 4.0)

Ümummilli lider H.Əliyevin ordu quruculuğu ilə bağlı söylədikləri isə çağdaş Azərbaycan xalqının çoxəsrlik tarix şüurunun ən vacib komponentidir: "Valideynlər öz övladlarını tərbiyə edərkən onlara verdikləri nəsihətlər içərisində ən birinci nəsihət, ən birinci valideyn tapşırığı, oğlunun orduda xidmət etməsi olmalıdır" (Hərbi bilik, 2007: 64).

**Tədqiqat**

Şübhəsiz, ölkənin, dövlətin Silahlı Qüvvələr metamodelinin zərurəti ilə bağlı referans nöqtələrini istənilən sayda artırmaq mümkündür. Qeyd etmək vacibdir ki, bu metamodel özlüyündə kifayət qədər əlaqələndirilmiş diferensial şaxələrə malikdir. Nümunə olaraq hava hücümundan müdafiə, quru qüvvələri, dəniz qüvvələri, sərhəd qoşunları, daxili qoşunlar və s. struktur hərbi birləşmələri misal göstərmək olar. Sadaladıqlarımızdan sərhədşünaslıq elmini digərlərindən ayıraraq spesifik fonda təhlil etməyi məqsəduyğun hesab edirik. Burada Sərhəd Qoşunlarına xüsusi yanaşma olaraq "sərhədşünaslıq elmi" adlandırmağımız heç də təsadüfi deyil. Təfsilati analiz olaraq iki əsas model üzərində analiz aparmağımızı sinkretik anlam kateqoriyasında daha məqsədəuyğun hesab edirik:

- **Elmi-fəlsəfi yanaşma.** Sərhəd anlamının bu fonda olan təhlili kifayət qədər geniş fundamental prinsipləri özündə birləşdirir. Referans olaraq ümumtük ədəbiyyatının yeganə yazılı eposu olan "Kitabi-Dədə Qorqud" dastanını göstərmək olar. Türkün milli xarakteri, etnopsixoloji arxetipləri və digər anlamları özündə birləşdirən bu eposun dünya tarixinin mədəni irsində tutduğu yer hamımıza bəllidir. Sərhədşünaslıq modelinə olan elmi-fəlsəfi yanaşma isə daha qabarıq bir formada realizə olunmuşdur. Belə ki, dastanın 4-cü boyunda (Qazan bəyin oğlu Uruz bəyin dustaq olduğu boy) Qazan xan oğlunun hələ də elini, obasını qoruyacaq "yetkin cəngavər" olmadığı qənaətinə Uruz bəyin cavabı belədir: "Hünəri oğul atadanmı görər ögrənər, yoxsa atalar oğuldanmı ögrənər. Haçan sən məni alıb kafir sərhəddinə çıqardın, qılıc çalıb, baş kəsdin, mən səndən nə gördüm, nə ögrənəm" (Cəmşidov, 1999, 341).

Dastanın 9-cu boyunda da (Bəkil oğlu İmranın boyu) sərhəd anlamına eyni meyarlarla spesifik bir yanaşma mövcuddur. Sərhədin təhlükəli hüdud və istiqamətlərində İmran bəyin qulluq çəkməsi igidliyin, rəşadətin simvolu olaraq dəyərləndirilir. Digər boylarda da sərhəd anlamına olan yanaşmaya fraqmentar əsaslarla rast gəlmək mümkündür. Evristik təhlil baxımından onu deyə bilərik ki, "milli kimliyimiz" arxetipində dövlət sərhədi təkcə dövlət ərazisinin hüdüdlarını müəyyənləşdirən şaquli səth deyil, həm də milli xarakter və etnopsixoloji dəyərlərin hakim olduğu arealdır, ərazidir. Həmçinin vətən, millət, ana dili və digər modellərin formalaşması, o cümlədən inkişaf və tərəqqisinin əsas qayələrindən biridir. Belə ki, maarifçilik ideologiyasının banilərindən biri olan alman filosofu Herder söyləmişdir: "Dil, vətən və xalq mədəniyyəti vasitəsilə müəyyən edilən hər bir xalq "anadangəlmə dühaya"malikdir və ona görə də özünüidarəetməyə əzəli hüququ vardır" (Kissincer, 2019, 75).

Çağımızda isə sərhədşünaslıq anlayışı suveren dövlətin atributu olaraq qəbul olunmuş, elmi determinizm prinsipinə müvafiq olaraq daha geniş moduslara sahiblənmişdir. Məhz bu kontekstdə məşhur amerika yazıçısı və alimi M.Teybor söyləmişdir: "Hər bir elmin sərhədləri həmin dövrdə yaşayan aparıcı alimlər tərəfindən müəyyən edilir. Ona görə də həmin sərhədlər tez-tez dəyişirlər" (Şirəliyev, Əhmədov, 2021, 16).

Yaşadığımız texnotron əsr dövründə isə istinad etdiyimiz sitatın sərhədlərinin daha da genişləndiyi qənaətindəyik. Yəni sərhədçi hərbi xidmət prizmasından cavabdeh olduğu ərazini potensial təhdidlərdən qorumalı, alim ixtisas sahəsinə müvafiq elmi dəyərlərin sərhədini psevdoelm və digər çirkablardan mühafizə etməli, müəllim təhsilin sərhədlərini disfunksional təhlükələrdən qorumalı, mədəniyyət və incəsənət mütəxəssisləri milli-mənəvi dəyərlərimizin sərhədlərini sosial- siyasi deqradasiyadan hifz etməli, dövlət məmurları, siyasi xadimləri isə ölkəsinin daxili və xarici siyasətinin sərhədlərini korrupsiya, inhisarçılıq, riyakarlıq və digər neqativ təzahürlərdən mühafizə etməlidir. Zənnimizcə bu cür elmi-fəlsəfi yanaşma təhlilimiz bütün peşə və ixtisas sahələrinə aiddir.

- **Teoloji yanaşma.** İslam dininin sakral dəyərləri fonunda sərhədlərin qorunması kifayət qədər böyük kanonik substratlara malikdir. Hər şey məhz vətənpərvərlik amilləri üzərində bərqərar olmalı, bütövlükdə vətən uğrunda döyüşmək cihadın gerçək substansiyası olmaqla islam dininin fundamental referansı kimi dəyərləndirilir. Müqəddəs kitabımız olan Qurani-Kərimdə Ali İmran

surəsinin 200-cü ayəsində deyilir: “Ey iman gətirənlər! (Dində vacib olan hökmləri yerinə yetirməyin zəhmətinə, düçar olduğunuz bəlalara) səbr edin, (Allahın düşmənlərinə qələbə çalmaq uğrundakı müharibə və döyüşlərdə sizə üz verən müsibət və çətinliklərə ) dözün, (sərhəd boyu növbədə durub cihada) hazır olun və Allahdan qorxun ki, bəlkə, nicat tapasınız!” (Qurani- Kərim, 1992: 75).

Müqəddəs ayədə mötərizədə verilmiş “Sərhəd boyu növbədə durub cihada” hazır olmaq ibarəsi isə kontent analiz baxımından şəhidlik zirvəsinin bilavasitə mücəssəməsi olub ən böyük fəxarət və qürur anlamını formalaşdırır. Həmin surənin 169-cu ayəsində isə deyilir: “Allah yolunda öldürülənləri (şəhid olanları) heç də ölü zənn etmə! Xeyr, onlar öz Rəbbinin yanında diri olub ruzi (cənnət ruzisi) yeyirlər” (Qurani- Kərim, 1992, 71). İslam dininin qurucusu olan Məhəmməd Peyğəmbərin (ə) hədislərində sərhədin “müqəddəslik” formatı daha da konkretləşmişdir: “Ölümdən sonra hər bir əməl öz sahibini tərk edər, yalnız Allah yolunda sərhədi qoruyan kimsənin əməlindən başqa. Onun əməli böyüyər və Qiyamət gününədək ruzisi verilər” (Reyşəri, 2009: 181).

## Nəticə

Nəhayətdə sərhədşünaslıq fonunda apardığımız kiçicik elmi-fəlsəfi və teoloji yanaşma prinsiplərini aşağıdakı qaydada ümumiləşdirmək mümkündür:

– Çağdaş dövlətçilik konyukturasında ordu metamodeli birmənalı şəkildə suverenlik və ərazi bütövlüyünün qarantıdır. Onun təkmilləşməsi, modern inkişaf strategiyaları üzərində qurulması və digər nəsnələri dövlət və vətəndaş cəmiyyətinin başlıca vəzifəsi olmalıdır. Belə ki, hərb tarixinin kanonik əsərlərindən biri sayılan qədim Çinin “Hərb sənəti”ndə deyilir: “Ordudakı forma suya bənzəyir: Suda olan forma-yüksəklikdən qaçmaq və alçaqlığa can atmaqdır; orduda olan forma dolu ilə üz-üzə gəlməkdən qaçmaq və boşluğa zərbə endirməkdir. Su ərazidən asılı olaraq öz axarını müəyyən edir; ordu düşməndən asılı olaraq qələbəsini müəyyən edir. Ona görə ordudakı qüdrət dəyişəndir, suda dəyişməz forma yoxdur. Kim ki, dəyişikliklərə və çevrilmələrə malik olur, o qələbə qazanır və bu da ilahilik adlanır” (Tszin, 2009: 159).

– Dövlət və vətəndaş cəmiyyətinin uğurlu inteqrasiya mexanizmlərindən biri onun bilavasitə həmin xalqın tarixi arxetipləri, milli xarakter sütunları üzərində qurulmasıdır. Arxetip və milli xarakter cəmiyyətin mənəvi, əxlaqi, tarixi kulturoloji, psixoloji, dini və digər nəsnələrin toplusudur. Şübhəsiz, söhbət neqativ anlamlardan deyil, səbatlı xüsusiyyətlərə malik proqressiv ideyalardan gedir. Bu yönümdən məşhur fransız filosofu Russo söyləmişdir: “Bir dəfə adətlər yetişib kök atdımı, artıq onları düzəltməyə çalışmaq həm təhlükəli, həm də əbəsdir. Xalq, aradan qaldırmaq üçün belə olsa, dərdlərinə kimsənin toxunmasını istəməz, eynilə həkimi görüncə titrəməyə çalışan ağılsız və qorxaq xəstələr kimi” (Russo, 2022, 64).

Texnoloji-informasiya sferasında tərəqqinin geniş vüsət aldığı bir dövrdə cəmiyyətin sağlam inanclarını, dəyərlərini qorumaq kifayət qədər çətin bir prosesdir. Xüsusilə “nihilizm və liberal həyat tərzi” fonunda müxtəlif sosial şəbəkə seqmentləri, kütləvi informasiya vasitələrinin təbliğat manipulyasiyası qlobal bir əndazəyə çevrilmişdir. Neofreydizm fəlsəfi-psixoloji cərəyanın yaradıcılarından biri olan sosial psixoloq və filosof Erix Frommun dediyi kimi: “Radio, televiziya, kino və gündəlik qəzetlərdən hamı azad istifadə edə bilər. Amma kütləvi informasiya vasitələri bizi keçmişin və müasir dövrün ən yaxşı ədəbi və musiqi əsərləri ilə tanış etmək əvəzinə, adamların beynini bir az mədəni səviyyəsi olanların öz asudə vaxtının hətta ən cüzi bir hissəsini də sərf etməyəcəyi, reklam əlavəsinə bənzəyən, ən aşağı səviyyəli, gerçəklikdən uzaq və sadist təxəyyüllə dolu olan cəfəngiyyatla doldurur” (Fromm, 2019: 7).

Dünya şöhrətli elmi-siyasi xadim, sovetlər dönəmində “təhlükəli ideoloq” ləqəbi ilə tanınan Zbiqnev Bjezinski isə mövcud məsələyə dövlətçilik prizması baxımından daha sərt mövqe sərgiləmişdir: “Müasir rabitə sistemləri bu insanlar və ənənəvi hakimiyyət arasındakı məsafəni artırır və onların şüurunda ədalətsizliyin hökm sürdüyü hissini get-gedə daha geniş şəkildə formalaşdırır ki, bu da etiraz doğurur və buna görə də onlar ekstremist ideyalara münasibətdə daha həssasdırlar və ekstremistlərin cərgələrini asanlıqla artırırlar” (Bjezinski, 2020: 296).

Məhz bu yönümdən stabil dövlət və vətəndaş cəmiyyətin etnopsixoloji dəyərlərini müxtəlif məzmunlu aşınmalardan qorumaq üçün kompleks struktur tədbirlər hazırlanmalı, ehtiyac olduğu

təqdirdə sərt senzura xarakterli addımlar atılmalıdır. Unutmayaq ki, vahid Azərbaycan xalqı olaraq müstəqillik, xüsusilə ərazi bütövlüyümüzün, sərhədlərimizin bərpası məhz milli xarakter, o cümlədən qədim tarixə sahib etnopsixoloji dəyərlərimizə olan sadiqlik fonunda həyata keçirilmişdir.

– Sərhədşünaslıq elminə olan teoloji yanaşma kifayət qədər kompetent dəyərlərə malikdir. Çünki islam dininin sakral dəyərləri xalqımızın tarixi kulturoloji dəyərlərinin ayrılmaz tərkib hissəsidir. Müqəddəs sərhədlərimizin bütövlüyü uğrunda aparılan döyüşlərdə hamımız bu dəyərləri aşkar cizgilərlə müşahidə etdik. Məhəmməd Peyğəmbərin (ə) hədislərində də həmin ornamentlər daha aydın seçilir: "Bir gün və bir gecə sərhəddə keşik çəkmək, gündüzü orucla gecəsi ibadətlə keçirilən bir aydan daha xeyirlidir. Əgər şəxs bu növbə əsnasında ölərsə, gördüyü işin əcri və savabı qiyamətə qədər davam edər, şəhid olaraq ruzisi də davam edər (cənnətdə ruzi ilə təmin olunar) və qəbirdəki sual mələklərindən qorunar (hesabın sıxıntısını çəkməz)" (Murad, 2010: 578).

Başqa bir hədisdə isə sərhədşünaslıq elminə yönəlik təbəddülatlar daha da konkretləşmişdir: "İki göz cəhənnəm odu görməyəcək: Allah xofundan ağlayan göz və Allah yolunda gecə vaxtı keşik çəkən göz" (Reyşəri, 2009: 181).

– "Sərhədşünaslıq elmi" kateqoriyasında apardığımız təhlillərin yekun qənaəti olaraq onu deyə bilərik sərhədin qorunması və ya təhlükəsizliyinin təmini təkcə silahı "Qayışa" və ya "Kürəyə" vəziyyətində saxlamaqla bilavasitə sərhəd xidmətinin təşkilindən ibarət deyil. Milli xarakter, tarixi etnopsixoloji və digər arxetipik dəyərlər fonunda istənilən demokratik vətəndaş cəmiyyəti praqmatik, o cümlədən abstrakt məfhum olaraq məhz bu zərurətə əbədi olaraq riayət etməlidir: Hamımız sərhədçi olmalıyıq!

## Ədəbiyyat


1. Makiavelli, N. (2008). *Hökmdar*. Qızıl Şərq.
2. Nəzəroğlu, C. (2022). *Danışığınla həyatı qazan*. Qanun.
3. Hərbi bilik. (2007). *Hərbi nəşriyyat*.
4. Cəmşidov, Ş. (1999). *Kitabi- Dədəm Qorqud*. Elm.
5. Kissincer, H. (2019). *Dünya nizamı*. Qanun.
6. Şirəliyev, H., Əhmədov, Ə. (2021). Politologiya. Gənclik.
7. Bünyadov, Z., Məmmədəliyev, V. (1992). *Qurani-Kərim*. Olimp.
8. Reyşəri, M. (2009). Mizanul-hikmət. Nurlar.
9. Tszin, U. (2009). *Hərb sənəti*. Zəkioğlu.
10. Russo, J. (2022). *İctimai müqavilə*. Qanun.
11. Fromm, E. (2019). *Sağlam cəmiyyət*. Qanun.
12. Bjezinski, Z. (2019). *Böyük şahmat taxtası*. Qanun.
13. Murad, K. (2010). *Peyğəmbərimizdən həyat ölçüləri - 250 hədis tərcüməsi və şərhi*. İpəkoğlu.


Daxil oldu: 26.08.2024
Baxışa göndərildi: 07.09.2024
Təsdiq edildi: 07.10.2024
Çap olundu: 30.10.2024